AZƏRBAYCAN www.azerbaijan-news.az

# Moskvada Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun iclası keçirilib



Moskvada Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun ilk iclası keçirilib.

AZƏRTAC Rusiya hökumətinin rəsmi saytına istinadla xəbər verir ki, Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya hökuməti sədrinin müavini Aleksey Overçuk və Ermənistan baş nazirinin müavini Mger Qriqoryanın sədrliyi ilə keçən üçtərəfli işçi qrupunun iclasında Azərbaycan Prezidenti, Ermənistan baş naziri və Rusiya Prezidentinin 2021-ci il yanvarın 11-də imzaladıqları Bəyanatın yerinə yetirilməsi məsələləri müzakirə olunub.

İclasda 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın 9-cu bəndindən, eləcə də 2021-ci il yanvarın 11-də imzalanmış Bəyanatın 2-ci, 3-cü və 4-cü bəndlərindən irəli gələn vəzifələrin icrası məsələləri nəzərdən keçirilib.

Tərəflər dəmir yolu, avtomobil və qarışıq daşınmalar, daşımaların təhlükəsizliyinin, eləcə də onlara sərhəd, gömrük, sanitariya, baytarlıq, fitosanitar və digər nəzarətin təmin edilməsinə dair ekspert altqruplarının yaradılması barədə qərar qəbul ediblər. Görüş iştirakçıları 2021-ci il fevralın 2-dək altqrupları formalaşdırmaq və fevralın 5-dək onların ilk iclasının təşkil edilməsi barədə razılığa gəliblər.

Üçtərəfli işçi qrupun növbəti iclasının Moskvada keçirilməsi qərara alınıb. İclasın vaxtı həmsədrlərlə razılaşdırılacaq.